Rəhm edənlərə (mərhəmətli olanlara) Rəhman olan Allah rəhm edər. Yer üzündə olanlara rəhm edin ki, səmada Olan da sizə rəhm etsin

Abdullah bin Amr bin As (Allah hər ikisindən razı olsun) rəvayət edir ki, Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) belə demişdir: "Rəhm edənlərə (mərhəmətli olanlara) Rəhman olan Allah rəhm edər. Yer üzündə olanlara rəhm edin ki, səmada Olan da sizə rəhm etsin".
[Səhih] [Əbu Davud, Ət-Tirmizi,Əhməd]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) başqalarına mərhəmət edən kimsələrə, bu yaxşı əməllərinin qarşılığı olaraq, rəhməti ilə hər şeyi əhatə edən Rəhman olan Allahın mərhəmət edəcəyini xəbər vermişdir. Sonra Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) istər insan, istər heyvan, istər quş, istərsə də digər canlılar olsun, yer üzündəki hər bir canlıya mərhəmət edilməsini əmr etmişdir. Bunun qarşılığı isə yeddi qat səmanın üzərindəki Allahın sizə mərhəmət etməsidir.

http://sunnah.global/hadeeth/az/show/8289